qiraət məsələsi

G. BÜNYADZADƏ

# "Uşaq ədəbiyyatı ilə bağlı saytlar yaradılmalıdır"

## Bu gün uşaq ədəbiyyatı yoxdursa, sabah oxucu olmayacaq



21-ci əsr müəlliflərinin fikrincə, zəmanə uşaqları dovşan və tülkü haqda oxumamalıdır

*Hər bir valideynin arzusu layiqli övlad yetişdirmək və onu şəxsiyyət kimi formalaşmış görməkdir.Bunun üçün sağlam mühitin yaranması, sağlam tərbiyənin formalaşması vacib şərtlərdəndir. Eləcə də uşağın geniş potensiala malik şəxsiyyət kimi yetişməsi üçün onun dünyagörüşünü zənginləşdirmək, real həyata hazırlamaq və düzgün istiqamətləndirmək lazımdır. Bu yolda uşağın tərbiyəsinə birbaşa təsir edə biləcək vasitələrdən biri də uşaq ədəbiyyatıdır.Yaşadığımız dövrün kompüter, internet, eləcə də müxtəlif uşaq əyləncələri ilə zəngin olduğunu nəzərə alsaq, çoxları razılaşar ki, bu gün çox uşaqların mütaliə etməyə bir o qədər də həvəsləri yoxdur.*

Yazıçılar Birliyi uşaq ədəbiyyatı seksiyasının rəhbəri Qəşəm Nəcəfzadə bildirdi ki, uşaq ədəbiyyatında texniki və yazarlarla bağlı problemlər mövcuddur: "Əsas problem əsərlərin çap olunması üçün maliyyə vəsaiti ilə bağlıdır.Müəlliflər öz kitablarını 500-1000-dən yuxarı tirajla çap edə bilmir. Bu da onunla nəticələnir ki, kitablar lazımı ünvanlara çatdırılmır.Azyaşlı uşaqlar kitabxanalara özləri gələ bilmirlər,valideynlər isə kitab almaq marağında deyillər. Üstəlik,maliyyə qıtlığı kitabların, jurnalların şəkilli, rəngli, gözəl tərtibatda olmaması ilə nəticələnir. İkinci problem uşaq yazarları ilə olan problemdir. Bunu isə uşaq ədəbiyyatı yazıçılarının üzərinə düşən məsuliyyət kimi qiymətləndirmək olar. XX əsrin əvvəllərində Abdulla Şaiq, Abbas Səhhət, Rəşid bəy Əfəndiyev və digərləri tərəfindən uşaq ədəbiyyatına gətirilən obrazlar hələ də dəyişilməyib. Vaxtilə ədəbiyyatda olan dovşan, tülkü, pişik kimi obrazlar yaxşı olar ki, 21-ci əsrin əvvəllərində yeni bir obrazlara çevrilsin. Artıq bu heyvanlar öz yerlərini insana, insan xarakterinə insan düşüncəsinə versinlər.Qoy bu uşaqlar özü əsərin qəhrəmanı olsun. Belə hesab edirəm ki, uşaq şeirlərində uşaqların öz sosial problemləri uşaq düşüncəsi ilə əks olunmalı, çıxış yolu axtarılmalıdır".

Q. Nəcəfzadə uşaqlar üçün yazmağı heç də asan iş hesab etmir.Onun fikrincə, uşaq şeiri yazmaq üçün gərək uşaq olasan. Gərək öz böyük düşüncəni uşaq dilinə tərcümə etməyəsən, uşağı uşaq kimi görərək qələmə alasan: "Lakin bu gün bizim şeirlərin əksəriyyəti uşaq şeiri deyil. Daha çox uşaqlar haqqında şeirlərdir. Bir çox uşaq şairləri öz nəvələrini təsvir edərək onlar haqqında şeir qələmə alır ki, bu da artıq uşaq şeiri əvəzinə uşaqlar haqqında şeir olur. Uşaq şeirində uşağın öz düşüncəsi, dünyagörüşü, həyata, aləmə münasibəti öz əksini tapmalıdır."

O, bu gün kifayət qədər gənc uşaq şairləri, yazıçıları olduğunu bildirdi: "Gülnarə Munis, Sevinc Nuruqızı, Gülzar İbrahimova kimi yeni yaradıcı qüvvələr bu gün uşaq ədəbiyyatında öz sözünü deməyə hazırlaşan gənc yazıçı və şairlərdir. Onların öz yaradıcılığında təbiətdən, alleqoriyadan keçərək insan xarakteri üzərində öz fikirləri ifadə etməsi öndə duran vəzifələrdəndir". O bildirdi ki, öz nəşrində uşaq ədəbiyyatı ilə bağlı kitablar, jurnallar çap edən çox nəşriyyatlar olsa da, lakin ancaq uşaq ədəbiyyatına xidmət edəcək uşaq ədəbiyyatı nəşriyyatı 2008-ci ilin sonlarında yaranıb ki, bu da "Yuva", "Elli", "Günəş" kimi jurnalları çap edən "Beşik" nəşriyyatıdır. Q.Nəcəfzadənin fikrincə, bu nəşriyyatın bu gün fəaliyyətə başlamasını uşaq ədəbiyyatı sahəsində baş verən uğurlu addımlardan biri kimi qiymətləndirmək olar. Uşaqların indi kitab oxumağa həvəslərinin olmamasına gəlincə, şair həmkarlarına tövsiyə edir ki, balacaların maraqlarını nəzərə alaraq yazsınlar: "Uşaqların meyli daha çox hansı istiqamətdirsə,o istiqamətdə çalışmalı, təbliğatı məhz onların maraq çərçivəsinə uyğun aparmalıyıq.Hazırda uşaqların meyillərinin kompütere, oyunlara, texnikaya olduğu üçün təklif edirəm ki uşağı kitab oxumağa məcbur etmək əvəzinə uşaq ədəbiyyatını əhatə edəcək bütün materilallar disklərə köçürülməli,eləcə də ,uşaq ədəbiyyatı ilə bağlı saytlar yaradılmalıdır."

Bəzən isə hər bir şeyi biznes məqsədilə istifadə etməyə öyrəşənlər uşaq ədəbiyyatını da biznesə çevirməyə cəhd edirlər. Hər hansı digər mövzularda şeirlər yazanlar bəzən həmin şeirlərə mahnılar bəstələnəcəyini, onun məşhurlaşacağını sonunda gəlir əldə edəcəyini düşünürsə,uşaq ədəbiyyatında bu mümkün olmur.Belədə çoxları uşaq ədəbiyyatı üzərində işləməkdən uzaqlaşır. Q.Nəcəfzadənin fikrincə, kitablar gec də olsa satılır, sadəcə olaraq bizdə hələ kitab biznesi formalaşmayıb:"Əlbəttə, şairin kitabı ona gəlir gətirməlidir. Kitab çox gəlir gətirən bir biznes sahəsi olsa da, Azərbaycanda bu formalaşmayıb. Bəlkə də bu sahəni inkişaf etdirən bir adam olmalıdır. Ümumilikdə bizdə kitab ticarəti yoxdu. Belə ola bilər ki, hansısa imkanlı iş adamı nəşriyyata külli miqdarda maddi vəsait qoya bilər və çoxlu sayda kitabın nəşrini və satışını təmin edə bilər. Bununla müəllif də, həmin iş adamı da, maddi vəsait əldə edə bilər. Ümumən götürəndə kitab gec də olsa alınır, kitaba tələbat yaranır.Sadəcə buna da reklam, təbliğat lazımdır.Yüksək tərtibatda olması da kitab satışına zəmin yaradan səbəblərdəndir. Uşaq təfəkkürünü işə salan maraqlı şəkillərlə,tapşırıqlarla zəngin kitablar olmalıdır. Uşaq ədəbiyyatı ilə bağlı təbliğatda televiziyanın, mətbuatın rolu hər şeydən üstün olmalıdır. Əgər uşaq mətbuatı respublikanın hansısa ucqar zonasına gedib çatmırsa, təbii ki, bu sahəyə nəinki maraq heç bu sahə haqqında anlayış da bir o qədər olmayacaq. Buna görə də televiziyalarda gözəl uşaq verilişləri olmalıdır.Kukla teatrı fəaliyyətini gücləndirməli, yay aylarında uşaq parklarında uşaqlar üçün səhnəciklər düzəldilməlidir. Bütün bu stimullar uşaq ədəbiyyatının inkişafına birbaşa və dolayı yolla təsir edir. Məsələn,televiziyanın hər gün təbliğ etdiyi şou biznes nümayəndələrinin hamısını uşaqlar əzbər tanıyırlar. Lakin hansısa bir uşaq şairini, yazıçısını adlarını belə bilmirlər. Əgər televiziya onu yox ,bunu təbliğ edərsə ,uşaqlarda da buna maraq, həvəs artacaq. Heç bir məktəblərdə indi uşaqlarla şairlərin, yazıçıların görüşləri keçirilmir. Bütün bunlar da uşaqların ədəbiyyatdan uzaq düşmələrinə yol açır". Q. Nəcəfzadə uşaq ədəbiyyatını təbliğ edən daha bir vasitə kimi isə eyni ərazidə olan məktəblərin yaxınlığında uşaq ədəbiyyatı ilə zəngin köşklərin qoyulmasını təklif edir.

Digər dillərdən fərqli olaraq doğma dildə olan kitabların az olması,eləcə də bizdə olan kitabların xarici ölkələrin ədəbiyyatından fərqli olaraq əlvanlığının olmamasına gəldikdə isə müsahibimiz bildirdi ki, bu problem uşaq ədəbiyyatı sahəsinin bizdə yeni inkişafa başlaması ilə əlaqədardır.O, uşaq ədəbiyyatı üzrə müxtəlif müsabiqələrin keçirilməsini təklif edir.

"Göyərçin" jurnalının baş redaktoru,filologiya elmləri doktoru Rafiq Yusifoğlu uşaq ədəbiyyatının vəziyyətini bir o qədər də bədbin hesab etmir: "Yeni dövr tələb edir ki, uşaq ədəbiyyatı yeni istiqamətdə inkişaf etsin.Elə yeni dövrlə əlaqədar da uşaq ədəbiyyatının problemləri var. Tutaq ki, sovet dövründə uşaq ədəbiyyatı ilə bağlı tədbirlər çox keçirilirdisə, uşaq ədəbiyyatı da diqqət mərkəzində idi. Mən deməzdim ki, bu gün uşaq ədəbiyyatı diqqət mərkəzində deyil. Məsələn, "Göyərçin" jurnalı, "Günəş" jurnalı, "Savalan" qəzeti dövlət təminatındadırsa bu da dövlətin uşaq ədəbiyyatına diqqətinin məhsuludur. Bu gün də keçmişdə olduğu qədər uşaq ədəbiyyatının yaradıcıları var. Lakin bütün bunlara bu gün təbliğ çox zəifdir."

R.Yusifoğlu bildirdi ki, Qafqaz universitetində Ümumtürk Uşaq Ədəbiyyatı Qurultayı keçirilən zaman ümumi yanaşdıqda aydın oldu ki, Azərbaycanda kifayət qədər uşaq ədəbiyyatı da var uşaq ədəbiyyatının araşdırması da:" Sadəcə olaraq bu gün bu sahədə yazıb yaradan İlyas Tapdıq, Fikrət Sadıq, Zahid Xəlil və digərləri olsa da,onların irsini davam etdirəcək gənc yazarlara ehtiyac var". R. Yusifoğlu da hesab edir ki, hər bir sahənin inkişafı müəyyən qədər maddiyyatla bağlı olduğu kimi bu sahənin də inkişafına bu gün maddi vəsait qoymaq lazımdır:"Uşaq ədəbiyyatı kifayət qədər var ,lakin buna bu gün maraq yoxdur. Səbəbi bu sahənin təbliğatının çox zəif olmasıdır. Uşaqların çoxu bu gün ədəbiyyatdan uzaq böyüyür. Bu sahənin inkişafına ona maraq oyatmaqda isə televiziyanın rolu geniş olmalıdır". Digər müsahibimiz kimi R. Yusifoğlu da düşünür ki, uşaq ədəbiyyatı uşaqları cəlb edəcək bir tərtibatda olmalıdır: "Lakin təəssüf ki, bu gün belə kitablar azdır və bu da uşaqların bu sahəyə marağının sönməsinə gətirib çıxarır". Uşaqların xarici ölkə ədəbiyyatından xəbərsiz böyüməsi xarici uşaq ədəbiyyatının dilimizə tərcüməsinin az olmasıyla bağlı R.Yusifoğlu bildirdi ki, əvvəllər xarici ölkə ədəbiyyatı nümunələri doğma dilə tərcümə olunurdu,eləcə də bizim ədəbiyyatın nümunələri xarici dillərdə:Belarusiya, Özbəkistan, Qazaxıstan və digər ölkələrdə nəşr olunurdu və bu tərcümə işi nəşriyyatda plana salınmaqla tərcümə müqabilində müəllif qonorar alırdı:"Dövlət səviyyəsində bu münasibətləri qurmaq olurdu. İndi isə tərcüməçiyə heç bir vəsait ödənmədiyindən bu işlər müəyyən qədər axsayıb. Lakin tam demək olmaz ki, xarici uşaq ədəbiyyatı tərcümə olunmur. Prezidentin sərəncamı ilə kütləvi şəkildə tərcümə olunub kitabxanalara paylanan dünya uşaq ədəbiyyat nümunələri var. "Göyərçin" jurnalı da bu problemi öz növbəsində həll etmiş olur. Redaktorun tərcümə etdiyi neçə-neçə xarici nağıllar jurnalın yay aylarındakı nömrələrində balaca oxuculara təqdim olunur".

Vaxtilə uşaqları daim öz qanadlarında nağıllar aləminə aparan "Göyərçin" jurnalı isə ötən il 50 yaşını qeyd edib.Jurnalın tarixinə onun fəaliyyətinə nəzər saldıqda görmək olar ki, sovet dövrünün elə bir klassiki olmayıb ki, jurnalda fəaliyyət göstərməsin. Süleyman Rəhimov, Əli Vəliyev, Məmməd Rahim, Əhməd Cəlil, Rəsul Rza, Məmməd Araz, Fikrət Qoca, Anar, Elçin, Mehdi Hüseyn və digərləri balacaların sevimli şeir, nağıl nümunələrinin bu jurnalda müəlliflərindən olub. Jurnalda uşaq ədəbiyyatının zəngin coğrafiyasını görmək heç də çətin deyil.

M.Seyidzadə adına Mərkəzi Uşaq Kitabxanasının direktoru Rəhilə Rzayeva isə bildirdi ki, bu yaxınlarda açılışı olan kitabxana - kitab mağazasında kifayət qədər uşaq ədəbiyyatı var. Həm kitabxanada, həm də mağazada alman, rus və ingilis dillərində, eləcə də Azərbaycan dilində çox sayda ədəbiyyat nümunələri var. Həmin ədəbiyyat nümunələrini valideynlər elektron kataloqunda baxaraq sifariş də verə bilərlər. Kitabların jurnalların qiymətinə gəldikdə isə qiymətlər münasibdir. Yəni hər bir valideynin ala biləcəyi qiymətlərə kitablar burada tapmaq olar. Uşaq ədəbiyyatına tələbatın nə dərəcədə olub olmaması ilə maraqlandıqda isə kitabxananın direktoru bildirdi ki, kitaba tələbat demək olmaz ki, yoxdur. Uşaq ədəbiyyatına isə xüsusi tələbat var.

"Sehirli xalat" uşaq jurnalı və kitabının baş redaktoru Ülviyyə Hacılı isə jurnal və kitabın fəaliyyətindən danışdı. Kiçik yaşlı uşaqların oxuduğu vərəqlədiyi əlvan rəngli nağıl kitablarından fərqli olaraq sehirli xalatın-səhifələrindəki oçerklərin, hekayələrin, şeirlərin müəllifləri elə məhz uşaqlar özləridir. 3 ilə yaxın bir zamanda fəaliyyətini davam edən jurnal və kitab əməkdaşları şəhər məktəblərinin fəal uşaqlarını kitaba cəlb edərək yazılarına burada yer verməklə uşaqlarda ədəbiyyata meyli gücləndirir. Belə vəziyyətdə həmin kitab və jurnala tanış olan digər şagirdlər də həmin fəallar sırasında olmaq istəyəcək. Təbii ki, bu da bayaq haqqında danışdığımız uşaq ədəbiyyatına təbliğatın bir növüdür.